# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 411** **Bakı şəhəri, 23 dekabr 2021-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydalarının" təsdiq olunması haqqında" 1994-cü il 15 yanvar tarixli 10 nömrəli, "Respublikaya gətirilən humanitar yardımların bölüşdürülməsi, təyinatı üzrə çatdırılmasının vəziyyəti və bu işlərin təkmilləşdirilməsi tədbirləri haqqında" 1994-cü il 24 iyun tarixli 248 nömrəli, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı bəzi məsələlər haqqında" 1999-cu il 12 yanvar tarixli 5 nömrəli, "Polis əməkdaşının maddi və sosial təminatları ilə bağlı qaydaların təsdiq edilməsi haqqında" 2000-ci il 20 aprel tarixli 73 nömrəli və "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısının təsdiq edilməsi barədə" 2001-ci il 4 yanvar tarixli 4 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 22 iyun tarixli 346-VIQD nömrəli Qanununun tətbiqi və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 avqust tarixli 1424 nömrəli Fərmanının 3.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 15 yanvar tarixli 10 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 191, № 6, maddə 388, № 8, maddə 534; 2002, № 3, maddə 148, № 4, maddə 199; 2003, № 6, maddə 342; 2006, № 5, maddə 474, № 9, maddələr 819, 830; 2008, № 2, maddə 130; 2009, № 7, maddə 604; 2010, № 3, maddə 264; 2012, № 12, maddə 1356; 2016, № 4, maddə 824, № 7, maddə 1343, № 9, maddə 1585, № 11, maddə 1976; 2017, № 2, maddə 306, № 4, maddə 610, № 5, maddə 994; 2019, № 9, maddə 1552; 2020, № 10, maddə 1295, № 11, maddə 1397; 2021, № 3, maddə 275, № 4, maddə 404, № 7, maddələr 871, 875; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 6 oktyabr tarixli 295 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"nın 2.1.3-cü yarımbəndində "18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

**2.** "Respublikaya gətirilən humanitar yardımların bölüşdürülməsi, təyinatı üzrə çatdırılmasının vəziyyəti və bu işlərin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 24 iyun tarixli 248 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 7, maddə 734; 2008, № 2, maddə 130) preambulasının on altıncı abzasının ikinci cümləsində "sağlamlıq imkanları məhdud uşaqlara" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə, habelə sağlamlıq imkanları məhdud uşaqlara" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 12 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 1, maddə 46; 2008, № 2, maddə 130; 2017, № 9, maddə 1761; 2019, № 3, maddə 512; 2021, № 3, maddə 294) ilə təsdiq edilmiş "Hamiləliyin süni pozulmasına dair sosial göstərişlərin Siyahısı"nın 1-ci hissəsində "1-2 dərəcə əlilliyinin müəyyən edilməsi" sözləri "orqanizminin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyinin müəyyən edilməsi" sözləri ilə əvəz edilsin.

**4.** "Polis əməkdaşının maddi və sosial təminatları ilə bağlı qaydaların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 20 aprel tarixli 73 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 319; 2004, № 1, maddə 51, № 7, maddə 589, № 11, maddə 970; 2005, № 7, maddə 677; 2006, № 9, maddə 830; 2007, № 5, maddə 544; 2008, № 2, maddə 124; 2009, № 11, maddə 937; 2010, № 4, maddə 359; 2011, № 12, maddə 1260; 2014, № 4, maddə 460, № 5, maddələr 565, 593; 2016, № 6, maddə 1212; 2017, № 9, maddələr 1738, 1763; 2018, № 10, maddə 2146; 2019, № 3, maddə 512, № 4, maddə 776; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 21 oktyabr tarixli 315 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

4.1. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Xidməti vəzifələrinin icrası zamanı həlak olmuş, (vəfat etmiş), xəsarət (yaralanma, travma, kontuziya) almış, sağlamlığına digər zərər dəymiş polis əməkdaşına və onun ailəsinə birdəfəlik kompensasiyanın müəyyən edilməsi üçün tələb olunan sənədlər"in 2-ci hissəsinin birinci abzasında "əməkdaşı əlillik dərəcəsi aldıqda" sözləri "əməkdaşının əlilliyi müəyyən edildikdə" sözləri ilə əvəz edilsin;

4.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin polis əməkdaşına köç pulu və birdəfəlik kompensasiyaların ödənilməsi Qaydası və miqdarı haqqında" 3 nömrəli əlavənin IV bölməsinin 3-cü hissəsinin "c" bəndində "I və II dərəcə əlilliyi olan" sözləri "orqanizminin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 4 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 53; 2002, № 10, maddə 635; 2003, № 6, maddə 342; 2008, № 8, maddə 787; 2010, № 3, maddə 264, № 6, maddə 569; 2013, № 10, maddə 1200; 2016, № 9, maddə 1585, № 11, maddə 1976; 2019, № 3, maddə 513, № 7, maddə 1319; 2021, № 3, maddə 282, № 4, maddə 405; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 2 oktyabr tarixli 290 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyən-ləşdirilməsi üçün sənədlərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1.4-cü bəndin birinci və ikinci abzaslarında "I və II dərəcə" sözləri "orqanizminin funksiyaları 61-100 faiz pozulmuş" sözləri ilə əvəz edilsin;

5.2. 1.9-cu bəndin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"1.9. orqanizminin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər (müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər istisna olmaqla), 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər;";

5.3. 1.13-cü bəndin birinci abzasında "sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa və ya I dərəcə əlilliyi olan" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş və ya orqanizminin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

**6.** Bu Qərar 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti.- 2021.- 29 dekabr.- S.8.